# *Qərbi Azərbaycan İcması:* "Makronun ermənidən çox ermənilik etməsi gülüş doğurur"

**"Ermənistanın artıq özünün ictimai səviyyədə Qarabağ ermənilərinin qayıdışından bəhs etmədiyi bir vaxtda Fransa Prezidenti Emmanuel Makronun bu haqda danışması "ermənidən çox ermənilik etmək"dir və gülüş doğurur".**

AZƏRTAC xəbər verir ki, bu fikir Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda yer alıb.

Bildirilib ki, qayıdış qarşılıqlı olmalı və qərbi azərbaycanlıların da Ermənistandakı öz dədə-baba yurdlarına dönməsi təmin edilməlidir.

"Yanlış və cığal addımlarına görə Azərbaycan-Ermənistan arasında normallaşdırma proseslərindən tam olaraq uzaqlaşdırılmış səlibçi mentalitetli Fransanın bundan sonra ən doğru addımı yalnız və yalnız susmaq ola bilər", - deyə Qərbi Azərbaycan İcmasının bəyanatında vurğulanıb.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.8.